

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 75 (21.736)

21 aprel 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələr Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində olublar



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq aprelin 20-də Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə təhsil alan tələbələri Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində olublar.*

Tələbələrlə görüşdə komitənin sədri Müslüm Cabbarzadə bildirib ki, mülkiyyət hüquqlarının tənzimlənməsində vahid idarəçiliyi təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 19 may tarixli Sərəncamı ilə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin bazasında Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılıb. Komitənin inzibati binasında müasir avadanlıqlarla təchiz olunmuş iş otaqları, iclas zalı, xəritəçəkmə, server və çap otaqları, 3 arxiv otağı, digər yardımçı otaqlar mövcuddur. Komitənin arxivində 200 minə yaxın torpaq və digər daşınmaz əmlak obyektlərinə dair arxiv sənədləri, torpaq balansı, geobotaniki tədqiqatlar, torpaqdan istifadə hüququna dair Dövlət Aktları, müxtəlif miqyaslı bərk və kağız xəritələr, torpaq islahatı materialları, yerquruluşu sənədləri, kosmik fotoplanlar və elektron variantda materiallar qorunub saxlanılır. Binada Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, onun Naxçıvan Şəhər İdarəsi və komitənin tabeliyində olan Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu fəaliyyət göstərir.

Qeyd olunub ki, komitə ilə rayon (şəhər) idarələri arasında optik kabel vasitəsilə elektron əlaqə yaradılıb, daşınmaz əmlakın qeydiyyatının Milli Qeydiyyat Sistemi vasitəsilə elektron qaydada aparılması təmin edilib. Hazırda komitə tərəfindən vətəndaşlara 27 növdə elektron, 5 növdə səyyari xidmət göstərilir. Diqqətə çatdırılıb ki, perspektiv inkişafın təmin edilməsi, gələcək nəsillərin məskunlaşması və əhalinin ərzaq tələbatının daha dolğun ödənilməsi sahib olduğumuz torpaqların mühafizəsindən, ondan səmərəli istifadə səviyyəsindən asılıdır. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, torpaqlardan səmərəli istifadə istiqamətində də həyata keçirilən tədbirlər təkcə bu günümüzə deyil, eləcə də gələcəyə hesablanmış iqtisadi və sosial siyasətin bir hissəsidir. Torpaqlardan istifadəyə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi istiqamətində kollektiv qarşısında ciddi vəzifələr dayanır. Torpaqlardan istifadəyə dövlət nəzarəti, torpaq monitorinqi, yerquruluşu və geodeziya, xəritəçəkmə fəaliyyətinin yeni tələblərə uyğun təşkili üçün komitədə davamlı işlər aparılır.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Torpaq məsələləri şöbəsinin müdiri İntizar Həziyev, komitənin İnformasiya texnologiyaları və məlumat bazası şöbəsinin müdiri Arzu Məmmədov, Daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrin aparılması sektorunun baş məsləhətçisi Tural Cəfərov tələbələr qarşısında çıxış ediblər.

Sonra tələbələr komitədə iş prosesi ilə tanış olub, müasir geodeziya-ölçü cihaz və avadanlıqlarına baxıblar. Çöl şəraitində iş prosesi ilə tanışlıq zamanı tələbələrə bu cihazlardan istifadə qaydaları haqqında məlumat verilib.

✍ **Səbuhi HƏSƏNOV**

## "Bələdiyyələrin fəaliyyətində qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda maarifləndirici tədbir keçirilib



Qəsəbə və kənd bələdiyyə sədrlərinin iştirakı ilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin şöbə rəisi, ədliyyə müşaviri Səttar Zamanov bildirib ki, bu cür maarifləndirici görüşləri təşkil etməkdə məqsəd bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasıdır.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin əməkdaşı, II dərəcəli ədliyyə qulluqçusu Xəyal Eyvazov deyib ki, bələdiyyələrin öz əmlakına dair mülkiyyətçi hüququna malik olması onun statusu haqqında qanunda xüsusilə qeyd olunub. Bu mənada, bələdiyyə torpaqlarının idarə olunması sahəsində qanunvericiliyin tələblərinə əməl edilməsi və hüquq pozuntularının baş verməməsi üçün yerli özünüidarəetmə orqanı olan bələdiyyələr qanunvericiliklə müəyyən edilən tələbləri düzgün yerinə yetirməlidirlər. Bunun üçün onlara müvafiq metodik vəsaitlər paylanılıb, tövsiyə məktubları göndərilib.

Ədliyyə Nazirliyinin Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov "Bələdiyyə orqanlarında vətəndaşların müraciətləri ilə bağlı münasibətləri tənzimləyən qanunvericilik" mövzusunda çıxış edərək bildirib ki, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələri vətəndaşların, o cümlədən digər fiziki və hüquqi şəxslərin təklif, ərizə və şikayətlərinin qəbulu, qeydiyyata alınması, baxılması, cavablandırılması və arxivləşdirilməsi ilə bağlı kargüzarlığın aparılması işini tənzimləyir.

Sonra mövzular müzakirə edilib, tədbir iştirakçılarına "Bələdiyyə büdcəsinin planlaşdırılması: şəffaflıq və hesabatlılıq" metodik vəsaiti paylanılıb.

**Muxtar RZAZADƏ**

## Naxçıvanbank kredit faizlərini aşağı salıb

*"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının qərarı ilə kreditlərin faiz dərəcələri aşağı salınıb.*



Bank tərəfindən kənd təsərrüfatı üzrə heyvandarlığa, arıçılığa 15 faizlə, taxılçılığa, kartofçuluğa, bostan-tərəvəz və qarğıdalı kimi əkinçilik sahələrinə 13 faizlə kreditlər verilir. Muxtar respublika sakinləri istehlak kreditlərini 17-18 faizə, kart kreditlərini 18-20 faizə, bankın öz vəsaiti hesabına verilən ipoteka kreditlərini isə 10-11 faizə götürə bilərlər. Onu da qeyd etmək lazımdır ki, ipoteka krediti üzrə faiz dərəcəsinin aşağı salınması Naxçıvanbank tərəfindən əvvəlki illərdə verilmiş kreditlərə də şamil olunur.

Cari ildə "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti 2 milyon 350 min manat kredit verib. Bu vəsaitin 371 min 600 manatı kənd təsərrüfatı sahəsini əhatə edir. Belə ki, kreditin 120 min manatı heyvandarlıq sahəsinin, 230 min manatı isə əkinçilik sahəsinin payına düşür.

Bank tərəfindən ipoteka kreditlərinin verilməsi bu il də davam etdirilir. Bu il 9-u güzəştli olmaqla, ümumilikdə, 17 ailə ipoteka krediti ilə mənzil sahibi olub.

Qeyd edək ki, muxtar respublika üzrə banklar tərəfindən 2017-ci ilin yanvar-mart aylarında verilmiş kreditlərin həcmi 5 milyon 21 min manat olub. Bunun 1 milyon 252 min manatı qısamüddətli, 3 milyon 769 min manatı isə uzunmüddətli kreditlərin payına düşür. Cari ildə banklar tərəfindən kənd təsərrüfatına, əsasən, əkinçilik, bostan-tərəvəz məhsullarının istehsalı üçün kreditlər verilərkən aşağı faiz dərəcələrinin tətbiq edilməsi nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda mədəniyyət sahəsində qarşıya qoyulan vəzifələr yerinə yetirilir

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrasını 2017-ci ilin birinci rübündə diqqət mərkəzində saxlamışdır. Bu dövrdə muzeylərlə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbi arasında 7 distant dərs keçilmiş, muzey fondlarına 266 yeni eksponat daxil olmuşdur. Ümumilikdə, muzeyləri 92 min 439 nəfər ziyarət etmişdir ki, onların da 26 mindən çoxu xarici ölkə vətəndaşıdır.***

Kitabxanaların fəaliyyətinə də diqqət artırılmış, "Nağıl günləri" və "Mütaliə günləri" davam etdirilmişdir. Kitabxana əməkdaşları tərəfindən uşaq bağçalarında, ümumtəhsil məktəblərinin ibtidai siniflərində "Nağıl günü" başlığı altında, ümumilikdə, 142 tədbir keçirilmişdir. Bu dövrdə kitabxanalara 77 adda 648 nüsxə kitab paylanmışdır. Kitabxanalarda yeni oxucu sayı 832, oxucu gəlişi 36 min 307 nəfər, kitab verilişi 175 min 785 nüsxə təşkil etmişdir. Onu da qeyd edək ki, kitabxana işçilərinin peşə hazırlığını yüksəltmək məqsədilə ongünlük kurslar təşkil edilmiş, bu kurslarda 54 kitabxana əməkdaşı iştirak etmişdir.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Nadir şah", "Arılar arasında", M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında "Niyyət açarı", "Sirli sözlər", "Şahzadə Bəndalı", "Qırmızı papaq", "Uf-Uf xanım", "Nağmakar bülbül", Naxçıvan Dövlət Uşaq Teatrında isə "Kosanın kələyi" tamaşaları teatrsevərlərə təqdim olunmuşdur. Muxtar respublikanın xalq teatrları da ötən rübdə tamaşaçılar qarşısına hazırladıqları əsərləri nümayiş etdirmişlər.

2017-ci ilin I rübündə muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində tədrisin keyfiyyətini yüksəltmək üçün metodik kurslar təşkil olunmuş, mühazirələr oxunmuş, ustad dərsləri davam etdirilmişdir. Musiqi məktəblərində təhsil alan şagirdlər üçün "Lira" intellektual oyunu keçirilmiş, vətənpərvərlik duyğularının gücləndirilməsi məqsədilə konsertlər təşkil edilmişdir. Nazirlik tərəfindən sağlamlıq imkanları məhdud, aztəminatlı və şəhid ailələrinə, valideyn himayəsindən məhrum uşaqlara mədəni xidmət işi də gücləndirilmiş, tamaşalar göstərilmişdir.

Ötən müddətdə turizm sahəsində təbliğat işlərinin əhatə dairəsi genişləndirilmiş, muxtar respublikaya gələn turistlərin sayı artmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Əmək yarmarkasında 42 nəfərə işə göndəriş verilib

***Muxtar respublikanın demoqrafik inkişafına paralel olaraq əhalinin məşğulluğunun artırılması üçün elmi surətdə əsaslandırılmış dövlət proqramlarının həyata keçirilməsi uğurlu nəticələrlə yadda qalıb.***

Şərur Rayon Məşğulluq Mərkəzinin keçirdiyi növbəti əmək yarmarkasında bu barədə ətraflı danışılıb.

Şərur şəhərində təşkil olunan tədbiri giriş sözü ilə açan mərkəzin direktoru Məmməd Məmmədov deyib ki, əhalinin işlə təmin olunması üçün ən çevik tədbirlərdən sayılan əmək yarmarkalarının keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Təkcə ötən il Şərurda keçirilən 2 əmək yarmarkasına idarə, müəssisə və təşkilatlardan 577 boş iş yeri çıxarılıb, yarmarka vasitəsilə 71 nəfər müxtəlif sahələrdə daimi işlə təmin olunub. Eyni zamanda muxtar respublika Təhsil və Səhiyyə nazirlikləri ilə birgə keçirilmiş əmək yarmarkalarında da onlarla rayon sakini ixtisasına uyğun işə göndəriş ala bilib.

Məmməd Məmmədov bildirib ki, yarmarkada 39-u özəl olmaqla, 47 təşkilatdan 313 boş iş yeri işaxtaranlara təklif olunur.

Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Asif Hüseynov çıxış edərək qeyd edib ki, muxtar respublikamızda insan amili diqqətdə saxlanılan məsələlərdəndir. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına ciddi fikir verilir, bu istiqamətdə rayonda ardıcıl tədbirlər həyata keçirilir. Yeni yaradılan sənaye və istehsal müəssisələri, aqrar sahənin inkişafı, tikinti-quruculuq işlərinin həcminin artması, xidmət şəbəkələrinin genişlənməsi işaxtaran vətəndaşların işlə təmin olunmasına şərait yaradıb. Hazırda rayonda bir neçə iri tikinti layihəsi həyata keçirilir və burada onlarla sakin daimi və müvəqqəti işlərlə təmin olunub. Təhsil, mədəniyyət, səhiyyə müəssisələrində, özəl sektorda ali və orta ixtisas təhsilli gənclərə, müxtəlif peşə sahiblərinə ehtiyac vardır. Bu gün yarmarkaya həmin təşkilatlardan boş iş yerləri çıxarılıb.

Əmək yarmarkasında 42 nəfərə işə göndəriş verilib, 3 nəfər peşə hazırlığı kurslarına göndərilib.

**Elman MƏMMƏDOV**

# Ucqar dağ və sərhəd kəndi Gərməçataq müasirləşir

***Bu gün muxtar respublikanın sərhəd kəndlərində sakitlik hökm sürür. Bu kəndlərin coğrafi baxımdan harada yerləşməsindən asılı olmayaraq hər birinin müasir görkəmə qovuşması diqqət mərkəzində saxlanılır, hər il yeni sosial obyektlər istifadəyə verilir, sakinlərin rahatlığı təmin olunur. Bu işlər Babək rayonunun ucqar dağ və sərhəd kəndi olan Gərməçataqda da davam etdirilir.***

Avtomobilimiz son illərin quruculuq ərmağanlarından olan Naxçıvan-Şahbuz magistral yolunda irəliləyir. Naxçıvan Dövlət Radiosunun efirində isə ustad xanəndə Əlibaba Məmmədovun ifasında "Mənim Azərbaycanım" mahnısını dinləyirik. Əsrarəngiz Naxçıvan təbiətini heyranlıqla seyr edərkən qeyri-ixtiyari həmin mahnıdan bir parçanı zümzümə edirəm: Harda vardır belə dağlar, harda vardır belə vüqar?

Uzaqdan əzəmətlə, qürurla dayanan başı qarlı dağlar sanki gələni qarşılayıb ona qucaq açır, gedəni isə yola salır. Çöl-bayır isə güllərin, çiçəklərin dili ilə danışır, ağaclar ağ rəngə bürünməkdədir. Təbiətə al-əlvan naxışlar vurub, ürəkləri riqqətə gətirən və gözəllikləri fəsli olan yaz yurdumuzun qonağıdır. Bu an göz işlədikcə uzanan taxıl zəmiləri yolçunun diqqətini özünə cəlb edir. Magistral yolun sağ və sol tərəflərində canlanma müşahidə edilir. Hektarlarla sahədə taxıl əkini aparılıb, suvarılıb, gübrələnib. Deməli, bu il də bolluq olacaq. Bu an televiziya kanallarında gördüyüm, 90-cı illərdə çörəklə imtahana çəkildiyimiz günlərin kadrlarını xatırlayıram. Çörək növbələri, kəsilən ağaclar, enerji qıtlığı və daha nələr-nələr...

Dağların başına ilan kimi qıvrılan rahat yolda irəlilədikcə düşüncələr bir-birini əvəz edir və biz artıq düşmənin beş addımlığında yerləşən Gərməçataq kəndinə çatırıq. Zamanında bu yerlərdə mərmi yağışından baş qaldırmaq mümkün olmayıb. O günlər acı bir xatirə kimi arxada qalıb. İndi top-tüfəng səsini quruculuq işlərini aparan texnikaların səsi əvəz edib.

"Müstəqillik illərində Naxçıvanda başlanan yenilik və müasirliyin dinamikası yüksələn xətlə inkişaf edib. Bu inkişaf Gərməçataqda da hiss edilir. Kəndimizin əsrarəngiz təbiəti var. Bəlkə də bu gözəlliyə görədir ki, ötən əsrin 90-cı illərində mənfur düşmən Gərməçatağa bir neçə dəfə hücum etmiş, mövcud infrastruktur yerlə-yeksan olunmuşdu", – deyən kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Lazım Mirzəyev bizi qonaqpərvərliklə qarşılayır və söhbətə belə davam edir:

– O vaxt Kərətəpə, Bolutəpə, Novruzölən deyilən yerlərdə qanlı döyüşlər gedirdi. Həmin vaxt təkcə Gərməçataqda deyil, Naxçıvanın bütün sərhəd kəndlərində eyni abhava hökm sürürdü. Kəndin girişində büstü ucalan Vəli Zeynalov da o dövrdə düşmənin hücumlarını dəf edərkən şəhid olub. O, əslən Babək rayonunun Zeynəddin kəndindən idi. Vətənin ağır günlərində Gərməçatağın müdafiəsində dayanmışdı. Məlumat üçün deyim ki, kənddə başlanılan quruculuq tədbirləri çərçivəsində şəhidin büstünün ətrafı da abadlaşdırılacaq.

Bu gün şəhid Vəli Zeynalovun missiyasını Gərməçataqda şanlı Əlahiddə Ümumqoşun Ordunun əsgərləri davam etdirir. Əslən Zəngilan rayonundan olan əsgər İmamverdi Babayev deyir ki, ölkəmizdə ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki təminatı gücləndirilib, şəxsi heyətin mümənəvi xidməti üçün müasir infrastruktur yaradılıb:

– Tale elə gətirib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan və mühüm strateji mövqedə yerləşən Naxçıvanda xidmət etmək mənə nəsib olub. Vətənin bu parçasını qorumaq bizə tapşırılıb. Biz də bu vəzifəni ləyaqətlə yerinə yetirməyə çalışırıq.

Qeyd edək ki, aprel ayının əvvəllərindən kənddə tam orta məktəb binasının əsaslı şəkildə yenidən qurulmasına başlanılıb. Yenidənqurmadan sonra təhsil ocağında kompüter və şahmat sinifləri də fəaliyyət göstərəcək. Ümumilikdə isə 16 sinif otağı kollektivin ixtiyarına veriləcək. Görülən işlər təkcə məktəblə məhdudlaşmır. İkimərtəbəli kənd mərkəzində dövlət qurumlarının səmərəli fəaliyyəti üçün müasir iş şəraiti yaradılacaq. Xidmət mərkəzinin istifadəyə verilməsi ilə sakinlərin ərzaq və sənaye mallarına olan tələbatı məhz bu məkanda ödəniləcək. Hələ bu da son deyil. Kənddaxili yollar abadlaşdırılacaq, rabitə və elektrik xətləri yeniləncək. Kənd tam orta məktəbinin direktoru Mehman Əliyevin sözlərinə görə, məktəb binası 2001-ci ildə istifadəyə verilib. Bu gün həyatımıza sürətlə nüfuz edən yeniliklər təhsil ocağının da yenidən qurulmasını zəruri edib:

– Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrinin sakinləri kimi, biz də fasiləsiz təbii qaz və elektrik enerjisindən istifadə edirik. Naxçıvan şəhərindən başlanan rahat yol kəndimizə qədər uzanır. Ötən il Cəhri-Buzqov avtomobil yolundan Gərməçatağa qədər 9 kilometrlik yeni yol çəkilib, körpü salınıb. Üstəgəl, kənd dəniz səviyyəsindən 2 min 200 metr yüksəklikdə yerləşdiyi üçün əməkhaqqı və pensiyalar 20 faiz artımla ödənilir.

* * *

Kənddə teleötürücü qüllə və Naxtel mobil rabitə operatoru da quraşdırılıb. Görülən məqsədyönlü tədbirlər məskunlaşmanın artmasına səbəb olub. Belə ki, ötən ilin payızında bu kənddən olan və ölkəmizin müxtəlif yerlərində yaşayan daha 3 ailə öz doğma yurdlarına qayıdıb. Əhalinin əsas məşğuliyyəti arıçılıq və meyvəçilikdir. Hər həyətdə yaşı 50-ni, 60-ı ötmüş nəhəng cəviz ağacları var. Naxçıvan bazarında bu yerlərin cəvizi adla tanınır. Ötən il bol məhsul tədarük edənlərdən Rizvan Əhmədov dedi ki, bu kəndin zəhmətkeş insanları torpağın qədir-qiymətini bilirlər:

– Əkinəyararlı torpağımız azdır, ancaq yararlı torpaqlarımız çox məhsuldardır. Zəhmət çəkən bal yeyər, – deyiblər. Elə sözün bütün mənalarında. Söhbət baldan düşmüşkən, kənddə elə adam var ki, 60-70-ə yaxın arı ailəsi saxlayır. Dağ yamaclarından toplanan çiçəklərdən hasil olunan Gərməçataq balının dadına varanlar söhbətin nədən getdiyini yaxşı bilir. Elə ki, yay ayları gəldi kənddə həyat daha da qaynar olur, ekoloji təmiz və saf məhsullardan istifadə edən qonaqlar zəngin təbiətdən zövq alaraq dolğun təəssüratlarla buradan ayrılırlar.

Gərməçataq kəndində yaşayanlar bir vaxtlar çoxlu problemlərlə üz-üzə qalıblar. Amma bu gün kəndin hər bir problemini həll edən, məskunlaşmanın artmasını diqqət mərkəzində saxlayan, insan amilini ön plana çıxaran dövlətimiz var. Yazda, yayda buranın əsrarəngiz təbiətini və görülən quruculuq tədbirlərini də nəzərə alsaq, tam əminliklə demək olar ki, Gərməçataq bundan sonra da muxtar respublika sakinlərinin və qonaqlarının ən çox üz tutduğu ünvanlardan biri olacaq.

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***

***Naxçıvan Muxtar Respublikasının zəngin təbii ehtiyatları yerli istehsalın sürətli inkişafı üçün əlverişli şərait yaradıb. Bütün bunlar nəzərə alınaraq mineral xammalın və onların əsasında yerli sənaye üçün modifikasiya olunan məhsulların tərkibi, alınma üsulları, tətbiq sahələri öyrənilib və sistemləşdirilib.***

# Muxtar respublikada təbii ehtiyatlardan səmərəli istifadə yerli sənayenin inkişafına zəmin yaradıb

Muxtar respublikada sənaye, kənd təsərrüfatı və tikintidə yerli xammaldan geniş istifadə edilməsi iqtisadiyyatın əsas göstəricisi hesab edilir.

Qədim sivilizasiyanın ecazkar izlərini bu günə qədər özündə yaşadan Naxçıvan Muxtar Respublikası qeyri-adi gözəlliyi, coğrafi mövqeyi, landşaftı, iqlimi ilə bərabər, yeraltı və yerüstü sərvətləri ilə də fərqlənir. Təbiət sanki milyon illər faydalı süxurları, mineral suları, qiymətli filizləri və qeyri-filizləri seçib, çeşidləyib bu qədim diyarın əhalisinin ixtiyarına verib. Qiymətli metallarla zəngin filiz yataqları (boksid, molibdenin damartipli yataqları, badamitin Aşağı Qışlaq təzahürləri, Gümüşlü sink-qurğuşun, araqonit, dolomit yataqları), daşduz yataqları (Nehrəm, Duzdağ, Püsyan), çoxçeşidli mineral sularla bərabər, mərmər, qum, paliqorskit gili (Yurdçu, Qabıllı, Xıncab), teşenit üzlük daşı yataqları, çınqıl, gips, travertin, əhəngdaşı, kvarsit, kvarsitli qumdaşılar və digər tikinti materialları kimi istifadə edilən xammal yataqlarının, o cümlədən odadavamlı gips, anhidrid, məsaməli çınqıl, habelə əhəng və susuz soda istehsalı üçün əlverişli olan Nehrəm dolomit yataqları regionun təbii sərvətlərinin yalnız bir hissəsidir.

Əhəng, susuz gips, gipsdaşı muxtar respublika ərazisində Çeşməbasar, Çalxanqala və Böyükdüz yataqlarının təbii xammallarıdır. Bu yataqların ərazi üzrə yerləşmə xüsusiyyətləri, tərkib və xassələri öyrənilib, mərmər və Nehrəm yatağı dolomitinin kimyəvi tərkibi müəyyən edilib. Yerli xammal mərmər və dolomit əsaslı karbonatların közərdilməsindən alınan fosfatların tətbiqi, geokimyəvi xassələri böyük maraq doğurur.

Bu nəticələrə əsasən alınmış birləşmələrin tərkibində turş fosfatların olmadığı, birləşmələrin, əsasən, maqnezium və kalsium fosfatdan ibarət olduğu müəyyən edilib, stexiometrik nisbətə nəzərən metal fosfor nisbətinin kiçik qiymətləri istifadə edilən metalların tərkibində digər metal ionlarının qarışığının olmadığı aşkara çıxarılıb. Bu araşdırma bir tərəfdən muxtar respublika ərazisində yerli mineral xammal yataqlarının daha səmərəli istifadəsinə, digər tərəfdən ucuz və zəngin xammal əsasında çoxsaylı modifikasiya olunmuş məhsulların yerli istehsala yönəldilməsinə imkan verir. Məhz bu səbəbdən Naxçıvan Muxtar Respublikasında sənayenin sürətli inkişafı daxili tələbatın yerli xammal və istehsal hesabına ödənilməsinə, ixrac potensialının artmasına zəmin yaradır.

İnnovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün yaradılan münbit şərait nəticəsində muxtar respublikada bir-birinin ardınca yüksək standartlara cavab verən yeni sənaye müəssisələri fəaliyyətə başlayıb. Belə müəssisələrdən biri də muxtar respublikanın Kəngərli rayonunda inşa edilən və 2015-ci ildə istifadəyə verilən Naxçıvan Sənaye Kompleksidir. Ümumi sahəsi 9 hektar olan kompleks istehsal prosesini avtomatik idarəetmə və təhlükəsizliyə videonəzarət sistemlərinə malik 4 zavod və istehsal olunan məhsulların laborator müayinələrinin aparıldığı müasir avadanlıqlarla təchiz olunmuş bir laboratoriyadan ibarətdir.

Naxçıvan Muxtar Respublikasında əhəngdaşı yataqları, əsasən, Qarabağlardakı mədənlərdə mövcuddur. Bundan əlavə, Çalxanqala, Çeşməbasar və Böyükdüz yataqlarının xammalı əsasında alınan suvaq və üzləmə gipsi ekoloji təmiz və sərfəlidir. Naxçıvan Sənaye Kompleksində ilkin xammal olaraq muxtar respublikanın qeyri-filiz ehtiyatlarından geniş istifadə edilir. Bu isə muxtar respublikada müvafiq tikinti materiallarına tələbatın yerli istehsal hesabına ödənilməsinə şərait yaradır və istifadə olunan xammalın, habelə modifikasiya olunan məhsulların tərkibini və keyfiyyətini öyrənmək zərurətini ortaya çıxarır. Sənaye kompleksində istehsal olunan ekoloji təmiz əhəng, məsaməli beton blokları, suvaq və üzləmə gipsi, gips lövhələr inşaat sektoru, kənd təsərrüfatı, kağız və şüşə istehsalında geniş tətbiq edilir. Əhəng zavodunun istehsal gücü ildə 36 min, məsaməli beton zavodunun istehsal gücü ildə 150 min, gips zavodunun istehsal gücü isə ildə 40 min ton, gips lövhə zavodunun istehsal gücü ildə 2 milyon kvadratmetrdir.

Beləliklə, muxtar respublikada təbii ehtiyatlardan səmərəli istifadə edilməsi əsasında mineral xammalın kompleks tətbiqi konsepsiyasının gerçəkləşdirilməsi yerli sənayenin xammal və modifikasiya olunmuş materiallarla fasiləsiz təmin edilməsi ilə bərabər, ətraf mühitə ciddi ziyan vurmadan regionun ekoloji-iqtisadi problemlərini də həll edəcəkdir.

**Fizzə MƏMMƏDOVA**
***kimya üzrə fəlsəfə doktoru***
**Sevinc CABBAROVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

# Yeni xidmət obyekti: "Meynəli" şərab evi

***Muxtar respublikamızda həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti əhalinin həyat səviyyəsinin yüksəlməsinə və yeni xidmət növlərinin fəaliyyət göstərməsinə şərait yaradır. Ayrı-ayrı məhsulların satışı üzrə ixtisaslaşan mağaza və satış salonlarının istifadəyə verilməsi, müasir istehlakçıların tələblərinə uyğun xidmətlərin yaradılması baxımından əhəmiyyətlidir. Bu ayın əvvəlində Naxçıvan şəhərindəki Gənclər şəhərciyində "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış "Meynəli" şərab evi də bu sahədə günün tələbləri səviyyəsində xidmət göstərən nümunəvi iaşə obyektidir.***



200 kvadratmetrlik bir ərazidə geniş çeşiddə, 500-ə yaxın adda mal təklif edən bu xidmət obyektində muxtar respublikamızda və ölkəmizdə istehsal olunan içki məhsulları ilə yanaşı, dünyanın bu sahə üzrə tanınmış firmalarının məhsulları da vardır. Firma mağaza ilə tanış olarkən burada muxtar respublikamızda istehsal olunan yüksəkkeyfiyyətli, müxtəlif adda pivə, araq, çaxır, qazlı və qazsız mineral sular diqqəti cəlb edir. Ümumilikdə, bu satış obyektində Naxçıvanda istehsal edilən 45-dən çox, müxtəlif adda içki məmulatlarını bir yerdə tapmaq mümkündür ki, bu da müasir tələbkar istehlakçı üçün çox vacib amildir. İdxal məhsulları isə, əsasən, bu sahədə ixtisaslaşan Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Almaniya, Moldova, Meksika, İspaniya, ABŞ, İngiltərə, Fransa, İtaliya, Şotlandiyadan gətirilib, yüksəkkeyfiyyətli araq, çaxır, şampan, viski, rom, tekila, likör, konyaklardan ibarətdir. İdxal edilən bu məhsullar tamamilə orijinal məhsullardır, onların bir qismi ilk dəfə Naxçıvana gətirilib.

"Meynəli" şərab evində müasir xidmət şəraiti yaradılıb. Müştərilərə xidmətin müasir səviyyədə təşkil olunması məqsədilə gənc satış personalı işə cəlb edilib, əhaliyə həftənin 7 günü 12 saatlıq xidmət göstərilir. Mağazanın xidmətlərinə şəhərimizə gələn turistlərin də böyük maraq göstərdiyini nəzərə alaraq buraya əcnəbi dilləri bilən işçilər cəlb olunub. Ətrafdakı səliqə-sahman, mağaza daxilindəki rahat şərait buraya gəlmiş müştərilərin öz seçimlərini etməsinə imkan yaradır. Mağazadakı qiymətlər də əhalinin hər təbəqəsinin gəlir səviyyəsinə uyğundur. Bir sözlə, "Meynəli" şərab evinə gəlmiş müştərilər onlara göstərilən xidmətlərdən tam razı şəkildə alış-verişlərini edə bilirlər.

Təcrübə göstərir ki, xidmət sektorunda yaradılmış yüksək standartlar əhalinin həyat keyfiyyətini artırmaqla yanaşı, eyni zamanda istehsal sahələrinin də inkişafı üçün stimul verən amillərdəndir. Bu baxımdan fəaliyyətə başlayan hər bir yeni istehsal və xidmət sahəsi iqtisadi inkişafın dinamik artımının təmin olunmasına yönəlmiş dövlət qayğısının nəticəsi kimi muxtar respublikamızın iqtisadiyyatı üçün əhəmiyyətlidir.

**✍ Əli CABBAROV**

*Bu dünyada asan işlər çoxdur. Məsələn, məsləhət vermək, çərənçilik etmək, başgirləmək, səngərdə döyüşmək əvəzinə tankın üstündə şəkil çəkdirmək, tənbəllikdən yatıb günorta durmaq və sair, ilaxır. Tənbəllik demişkən, dünyaca məşhur maqnat Bill Qeyts deyir ki, mən ən çətin işlərimi ən tənbəl işçilərimə tapşırıram. Ona görə ki, onlar həmin işi yoluna qoymağın ən asan variantını tapırlar. Frans Kafka isə yazır ki, insanlar səbirsizliklərinə görə cənnətdən qovuldular, tənbəlliklərinə görə ora qayıda bilmirlər. Nəsə ki, hərə məsələyə bir cür yanaşır. Amma həqiqət budur ki, səbir böyük silah və gücdü. Bəzən bir ağacın bar verməsi üçün on illərlə gözləmək lazım gəlir, yəni səbir etmək.*



Jurnalist qeydləri

# NAZ-Lifanı "bağlayanlar", dükanlara "ağlayanlar", qəbiristanlıqlara "yas saxlayanlar"

### *Qaranlığı lənətləməkdənsə, dur bir şam da sən yandır*

Mirzə Cəlil isə hələ ötən əsrin əvvəllərində biganəliyi, laqeydliyi, tənbəlliyi və nadanlığı böyük bəla adlandırırdı. Ona görə də cəmiyyəti cəmiyyətin özündən gələn, öz içindən çıxan obrazlarla, simalarla aydınlığa aparmaq istəyirdi. Şeyx Nəsrullah da, kefli İsgəndər də, Qurbanəli bəy də, bizim Novruzəli də, Xudayar bəy də, Zöhrəbanu bacı da, Məhəmmədhəsən qardaş və ya əmi də belə meydana çıxmışdı. Hətta 25 il dədə-babalarımızın qulaqlarını "OYAN" nidası ilə yağır edən "Molla Nəsrəddin" jurnalı da... (Yeri gəlmişkən "Molla Nəsrəddin"in nəşrindən düz 111 il keçir və biz Böyük Mirzə Cəlilimizi hörmət və ehtiramla anırıq).

Əlqərəz, şərə, mövhumata, cahilliyə qarşı mübarizənin tarixi çox qədimdir. Elə insan yaranandan. Bu mübarizə min illərdir ki, bizimlə yol gəlir və yaxamızdan əl çəkmir. Bütün dövrlərdə naqisliklərə qarşı mübarizə aparanların da xoş və işıqlı məramı qarşısında baş əyməyə bilmirsən. Nəyə görə, çünki onlar qaranlığı lənətləmirdilər, onlar danışmaqdan çox iş görürdülər... Şam yandırırdılar, ocaq çatırdılar. Çünki onlar özləri də işıq, mayak idilər.

Bir də bizik axı... Yəni o biz ki, Mirzə Cəlilə vaxtilə "düşmən"



demişik, Naxçıvanda ilk mütərəqqi məktəb açan, qızları təhsilə cəlb edən Məhəmməd Tağı Sidqini məmur qapılarında süründürmüşük, Hüseyn Cavidi Sibir çöllərinə göndərmişik, 37-ci ildə minlərlə ziyalını – Azərbaycanın gələcəyinin üstündən "xətt çəkmişik", Naxçıvana muxtariyyət qazandıran Behbud ağa Şahtaxtinskini yaddan çıxarmışıq. Və ötən əsrin əvvəllərində olduğu kimi, elə sonlarında da Naxçıvanda baş verən mütərəqqi islahatlara bilərəkdən və ya bilməyərəkdən ağız büzmüşük, qaranlıq otaqda qara pişik axtarmaq vərdişimizdən əl çəkməmişik...

Qısası, məsələ budur ki, biz çox vaxt burnumuzun ucundan, evimizin kandarından o tərəfi görməmişik. Bəs nə mane olub?! Təbii ki, qaragüruhçuluq, qərəz, Günəşdə qara ləkələr axtarmaq, qatığa qara, gündüzə gecə demək, yersiz hay-küy salmaq...

### *Ya bir yol tap, ya bir yol aç, ya da yoldan çəkil*

Elə 20 il bundan əvvəl, Naxçıvanın inkişaf və yüksəliş dövrü başlayanda belə olmuşdu. Bu, o mərhələ idi ki, müharibə, aclıq, yoxsulluq, kəskin enerji böhranı, sovetdən qalma dağılmış iqtisadiyyat bizi dabandabana izləyirdi... Ən acınacaqlısı da o idi ki, ölkəmizin gələcəyi olan gənclər uçuruma gedirdi, elm, təhsil, sağlamlıq heç yada da düşmürdü. Təsəvvür edin ki, 1996-1998-ci illərdə mənim doğulduğum hörmətli Cəhri kəndinin mərkəzində 16 çayxana, 7 kababxana, 1 xaşxana və yaxud "yüzxana" var idi. Digər kəndlərimiz də onun kimi... Məsələ bu idi ki, səhərin gözü açılar-açılmaz o çayçıların hamısı ağzınacan dolurdu. Böyük əksəriyyəti də sabahımız üçün cavabdehlik daşıyacaq 15-35 yaş arası gənclər idi. Quru torpağın üstündə saatlarla loto oynayan, qumar, yumşaq desək, kart oynayan da, "Petrov" arağından 50 qram içib onunla-bununla dava edən də, cibində olan, əslində olmayan "son quruşu" belə "Qalatasaray"-"Rizəspor" oyunu üçün mərcə qoyanlar da həmin gənclər idi. Vay o idi ki, qış olsun, onda hamı çayxanaların içərisinə yığışardı, iynə atardın yerə düşməzdi, "Astra" siqaretinin tüstüsündən göz-gözü görməzdi. Bütün günü qeybət, domino, nərd, bir də səhərdən axşama Şabanın kinolarına baxıb "hırıldayan" sifətlər. Bir də təzəcə gün üzünə çıxan Sərdar Ortacın və Sibel Canın klipləri...

Uşaqlar da yavaş-yavaş, bəlkə də, möhkəm-möhkəm ana dilimizi kənara qoyub Türkiyə türkcəsində danışmağa başlamışdılar. Çünki cibində iki qəpik pulu olmayanlar 1 dana kasıb kərpicdən tikilən miskin daxmalarının üstünə iki dənə çanaq antena qoymuşdu... Vaxt "öldürsünlər" deyə. Dünya zamanla yarışırdı, biz də zamanı güllənin qabağına qoymuşduq. Hə, bax belə işlərə baş qarışdığından muxtar respublikanın yüzlərlə hektar bərəkətli torpağı ağzıgünə yatıb qalmışdı. Allahdan buyruq, ağzıma quyruq prinsipi aləmi götürmüşdü. Yol tapmaq, yol açmaq vaxtı çoxdan yetişmişdi və keçirdi.

### *O yerdə ki, hökmdar hökmdardır, təbəə təbəədir, ata atadır, oğul oğuldur, bil ki, orda qayda-qanun var, əmin-amanlıq var*

Və nəhayət, az əvvəl epizodik qeyd etdiyim dövr başladı. 1996-cı ildən muxtar respublika yeni dönəmə qədəm qoydu. 50, 100 ilin və bəlkə də, daha sonranın planları qurulmuşdu. Bu plan nə idi? İlk növbədə, təhsilli, vətənpərvər və sağlam gənclər, inkişaf edən cəmiyyət, güclü iqtisadiyyat, ordu quruculuğu, məşğul əhali, boş qalmayan, hər qarışı əkilən torpaqlar və bütün bu işlərə şüurlu, geniş düşüncə ilə yanaşmaq prinsipi...

Təbii ki, bu cür düşünülmüş islahatlar, seleksiya, köklü dəyişikliklər tarixən asanlıqla qəbul olunmayıb və başa gəlməyib. Bu dəfə də möcüzə baş vermədi. Həmin xəstəlik mənbəyi olan, vərəm çöplərinin tüğyan etdiyi çayçılar sökülüb yerinə abad parklar, yollar, kənd və xidmət mərkəzləri tikildikcə, kəndli torpağa qayıtdıqca, kəndlərdə kiçik istehsal sahələri, məktəblər, kitabxanalar, mədəniyyət evləri bina olduqca "Müsahibə verənlər"in, "Tank üstündə şəkil çəkdirənlər"in də sayı artdı. Yalançı "Mirzələr" nəinki öz kəndi-obasına, heç qapısına belə 2 ağac əkməyən, özlərini bizdən çox "vətənpərvər" sayan ağaların dəstəyi ilə yazmağa başladılar ki, bəs Naxçıvanı sökürlər, pulunu "loto"dan çıxaran hörmətli çayxana sahibi dostlarımızın çörəyini əlindən alırlar.

Amma hakimi-mütləq zaman göstərdi ki, lopa-lopa yağan qarın canı bir yaz Günəşidir. Naxçıvanda seçilən yol tamamilə düz yoldur. Çünki hər iş məqamında görüləndə, qətiyyət, ciddi siyasi iradə göstəriləndə qazanan xalq, dövlət olur.

Elə həmin vaxtlar idi. Ömrümdə ilk dəfə Bakıya gedəcəkdim. 10-cu sinfi bitirmişdim. 3 gün Naxçıvan Hava Limanında gecələdik. Nə bilet var idi, nə də təyyarə. Aeroportun köhnə binasının qarşısında 20-dən çox tum satan uşaq var idi. Nə məktəb yadlarına düşürdü, nə də ki oxumaq. Günlərlə skamyalarda gecələyən, bilet gözləyən insanların sayı-hesabı yox idi. Hava limanının ətrafındakı yüzlərlə bərbad çayçı, xaşxana, hətta nə qədər etik olmasa da, yazmağa məcburam ki, o dövrün acı mənzərəsi olan əxlaqsızlıq yuvaları ürəyimi bulandırırdı.

Xatırlayıram, bir hay-küy də onda qopmuşdu. Yenə "Mirzələr" başlamışdılar ki, Naxçıvanda sahibkarlara işləməyə imkan vermirlər. Maraqlı idi, görəsən, cəmiyyətə xəstəlik, əxlaqsızlıq gətirənlər nə vaxtdan və hansı haqla sahibkar olmuşdular?! O cür adamlara elə o vaxt da əməli işlə, tikib-qurmaqla ən layiqli cavab verilirdi: O "gecəqondu"ların yerini indi ən müasir Beynəlxalq Hava Limanı tutub. İndi "Cin bazarı"nın yerində geniş və işıqlı park və idman kompleksi, hərbi lisey, "Dördyol"dakı dəmir köşklərin, şirin su "budka"larının yerində Doğum Mərkəzi, Babək məhəlləsindəki çöllüklərdə "Naxçıvan" Universiteti, Heydər Əliyev adına məktəb, hərbçi ailələrinin yaşadığı "domik"lərin yerində isə müasir yaşayış binaları və Naxçıvan Dövlət Universitetinin tədris korpusları ucalıb.

Qısası, Naxçıvanda insanların xeyirinə olan mütərəqqi addımlar atılanda həmişə stəkanda fırtına qoparmaq cəhdləri baş qaldırıb. Naxçıvan Avtomobil Zavodunun istehsalı olan sarı rəngli NAZ-Lifan taksiləri Naxçıvana özləri ilə bir sürücülük, xidmət mədəniyyəti də gətirdi. Sürücülər əvvəl fəaliyyət üçün lisenziya aldılar, sonra da səliqəli, vahid geyim



formasında sükan arxasında əyləşib insanlara xidmət göstərməyə başladılar. Paytaxt "Mirzələr"i yazdılar ki, Naxçıvanda taksi sürücülərinə qarşı "repressiya" başlayıb. Dünən də bir sıra mənşəyi bilinməyən saytlar "üfləyiblər" ki, bəs NAZ-Lifan zavodu fəaliyyətini dayandırıb. Halbuki zavod daha səmərəli işləməyə başlayıb və yaxın günlərdə "X-80" modelini təqdim edəcək. Elə dünən Naxçıvan televiziyasının əməkdaşları zavodda iş prosesini lentə alıblar və arzu edənlər ***naxcivantv.az*** saytından həmin videomaterialı izləyə bilərlər. Beləcə, şər qüvvələrin dezinformasiya maşını əvvəl olduğu kimi, yenə də qara tüstü verə-verə gedir.

İndi Naxçıvanda vəfat edənlərə 3 gün yas tutulur, 1 dəfə ehsan verilir, digər vaxtlarda isə yasa gələnlərə çay, qənd və limon təklif



olunur. Başqa heç nə... Qəbiristanlıqların da hər birində abadlıq işləri aparılıb, yöndəmsiz qəbir çəpərləri sökülüb, minlərlə həmişəyaşıl ağaclar əkilib. Bu işlər muxtar respublikada böyükdən-kiçiyə hamı tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanıb. Lakin 2 ay bundan əvvəl bir sıra saytlar "göz yaşları" tökməyə başlamışdılar ki, bəs Naxçıvanda qəbirlər dağıdılır. Sonra da qəflət yuxusundan ayıldılar. Maraqlısı budur ki, əvvəl hay-küy qoparırlar, işin mahiyyətini dərk edəndən sonra isə deyirlər ki, bu mütərəqqi ənənələri digər bölgələrə də tətbiq etmək lazımdır. Bunun adı nədir bilmirəm. Amma hər halda bir adı var.

### *Bir adama yaxşılıq etmək istəyirsənsə, ona balıq vermə, balıq tutmağı öyrət*

Çoxumuz yaxşı xatırlayırıq, ötən əsrin 90-cı illərində Naxçıvanda bir dənə yaşıllıq, ağac qalmamışdı. Qaz, elektrik enerjisi olmadığından ağacların hamısı kömür peçlərində ömrünü bizə bağışlamışdı. 1996-cı ildə muxtar respublikanın ümumi ərazisinin 0,6 faizi yaşıllıq idi. Amma indi bu rəqəm 14 faizə çatıb. Niyə, bilirsiz? Ona görə ki, indi hər yerdə işıq da var, qaz da var, üstəlik, əhali hər həftə iməciliyə çıxıb ağac əkir, nümunə göstərir, bir yaşıllaşdırma, ekoloji mədəniyyət ortaya qoyur. Biz torpağı qorumağı da, sevməyi də, əkməyi də həmişəkindən daha çox öyrənmişik. O vaxt təzə-təzə bu işlər başlayanda qaragüruhçular yazırdı ki, Naxçıvanda əhalini zorla iməciliyə çıxarırlar. Amma bu ilin əvvəlində Naxçıvanda olan Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu "Əl-Fəcr" qəzetinin baş redaktoru Şərif Əl-Bəsil öz qəzetində yazmışdı ki, Naxçıvanın iməcilik ənənələrini bütün dünyada Vətəni, torpağı sevmək nümunəsi kimi tətbiq etmək lazımdır, yoxsa ekoloji böhran gələcəkdə bəşəriyyəti məhv edəcək. Şərif Əl-Bəsil Batabatda 4G texnologiyasından istifadə edəndə demişdi ki, bu yenilik dünyanın əksər ölkələrində arzu olaraq qalır. Bu yerdə milli mətbuatımızın banisi Həsən bəy Zərdabi yada düşür. O deyirdi: "Ucalmaq üçün uca ağacların başına çıxmaq yox, körpə fidanlar əkmək lazımdı".

Yeri gəlmişkən, Almaniya Federativ Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrab Naxçıvana bu həftəki səfəri zamanı demişdi ki, muxtar respublika blokadada olmasına baxmayaraq, sürətlə inkişaf edib. Burada bütün infrastruktur yeni və moderndir. Təhsil, rabitə şəbəkəsi müasirdir. Əhali rifah içində yaşayır, sabitlik qorunur. Bu nəticələri əldə etmək hər bir ölkənin arzusudur. Almaniyada olduğu kimi nizam-intizam burada da çox yüksəkdir.

Bu, dünyanın aparıcı dövlətlərindən birinin diplomatına məxsus fikirlərdi.

### *Ədalət qütb ulduzu kimi yerində dayanar və geri qalan hər şey onun ətrafında dönər*

Yaxşıya yaman deyən "Mirzələr" hər zaman olub. Lakin Dədəmiz Qorqud demişkən, ayıq başa, qoçaq ələ zaval gəlməz. 111 il bundan əvvəl ölməz Sabir də "Molla Nəsrəddin" jurnalında "Mirzələr"ə xitabən yazırdı:

*Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,*
*Yağı-yağ üstə çıxır, ayranı-ayranlıq olur.*

Budur, bütün keçilməz yolları keçən, aşılmaz zirvələri aşan Naxçıvan özünü dünyaya müasirliyin və inkişafın rəmzi kimi təqdim edir. O, Qafqazın San-Fransiskosu, Azərbaycanın "Yaşıl ürəyi"dir. Bu, ədalətin, vətənpərvərliyin, yurd sahibliyinin, yuxusuz və narahat gecələrin, nəfəs belə dərmədən işləməyin qələbəsidir. Güclü iqtisadiyyatı, abadlaşan yolları, müasir uşaq bağçaları, məktəbləri, kəndləri, tibb ocaqları, yüzlərlə çeşid ekoloji təmiz məhsulu, bərpa olunan Əlincəsi, Gülüstanı, Xanəgahı, intellektli və vətənpərvər gəncləri ilə Naxçıvan karvanı öz yolundadır.

*P.S. Bu arada, yarımbaşlıqlarda işlədilən müdrik fikirlər Konfutsiyə məxsusdu, ruhu şad olsun.*

**Sahil TAHİRLİ**
***Naxçıvan Televiziyası***

## Tofiq Bakıxanov Naxçıvan Dövlət Universitetində



*Ali təhsil ocağında Xalq artisti, “Şöhrət” ordenli bəstəkar, professor Tofiq Bakıxanovun rəhbərliyi ilə növbəti ustad dərsi təşkil olunub. Ustad dərsini aparan Bakı Musiqi Akademiyasının müəllimi, professor Hökümə Əliyeva universitetin Musiqi müəllimliyi və Simli alətlər ixtisaslarının tələbələrinə skripka alətinin sirri, ifa texnikası və düzgün istifadə qaydaları haqqında əyani şəkildə məlumat verib.*

Professor Tofiq Bakıxanov dərsin gedişini izləyib. Gənc ifaçılara məsləhət və tövsiyələrini verib, onları musiqinin sirlərinə dərindən yiyələnməyə səsləyib.

Ustad dərsləri bir neçə gün davam edəcək.

Tofiq Bakıxanov Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin birinci kurs tələbələrinin hesabat konsertinə də baxıb. Konsert Bəstəkarlıq ixtisasının I kurs tələbəsi Hakim Məmmədovun Xalq şairi Məmməd Arazın sözlərinə bəstələdiyi “Naxçıvan” mahnısının Solo oxuma ixtisasının I kurs tələbəsi Rüstəm İbrahimov tərəfindən ifası ilə başlayıb. Tələbələrdən Sevindik Rzayev və Fuad Kazımlı tarda, Namizət Oruclu qarmonda, Çilər Məmmədova, Səxavət Rəhimov, Aysel Rzayeva və digərləri fortepianoda rəngarəng musiqi nömrələri təqdim ediblər. İncəsənət fakültəsinin müxtəlif ixtisaslarına bu il qəbul olan tələbələrin nağara, fleyta, skripka, saksafon, kontrabas musiqi alətlərindəki solo ifaları alqışlarla qarşılanıb.

Proqramda Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov, Rauf Hacıyev və digər görkəmli Azərbaycan bəstəkarlarının, habelə dünya klassiklərinin repertuarından seçmələr səslənib. Konsert proqramı “Sarı gəlin” Azərbaycan xalq mahnısının ifası ilə başa çatıb.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov yekunda çıxış edərək hesabat konsertinin istedadların seçimi, tələbələrdə ilkin səhnə mədəniyyəti, sənət vərdişləri aşılanması baxımından əhəmiyyətini diqqətə çatdırıb. Rektor uğurlu konsert proqramını fakültə rəhbərinin, sənət müəllimlərinin birgə zəhmətinin bəhrəsi kimi yüksək qiymətləndirib, gənc sənətkara uğurlar arzulayıb.

**Taleh HAXVERDİYEV**

## “Hüseyn Cavid və Naxçıvan teatrı” və “Müqəddəs məkan Naxçıvan” adlı kitabların təqdimatı olub

***AMEA Naxçıvan Bölməsinin Mərkəzi Elmi Kitabxanasında İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanovun “Hüseyn Cavid və Naxçıvan teatrı” monoqrafiyasının və Ədəbiyyatşünaslıq şöbəsinin elmi işçisi Nərgiz İsmayılovanın “Müqəddəs məkan Naxçıvan” kitabının təqdimatı keçirilib.***







Tədbiri giriş sözü ilə kitabxananın direktoru Nuridə Kəngərli açaraq Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Hüseyn Cavidin ölməz əsərlərinin Naxçıvan teatrının repertuarının zənginləşməsindəki rolundan danışıb. O bildirib ki, yeni nəşr Azərbaycan sənətşünaslığı üçün dəyərli elmi əsərdir. Oxuculara təqdim olunan monoqrafiyada arxiv materialları əsasında Hüseyn Cavidin ömür və sənət yolu, bu keşməkeşli yolun Naxçıvanla bağlı məqamları işıqlandırılıb, Cavid qələminə məxsus dram əsərlərinin səhnə taleyi izlənilib.

Qeyd olunub ki, Ədəbiyyatşünaslıq şöbəsinin elmi işçisi Nərgiz İsmayılovanın Naxçıvan haqqında yazdığı bədii əsərlərin, publisistik və elmi məqalələrin yer aldığı “Müqəddəs məkan Naxçıvan” kitabı da diqqətəlayiq nəşrlərdən biridir.

Naxçıvanın orta əsrlərdən başlayaraq müasir dövrümüzədək keçdiyi yolu özündə əks etdirən kitabda tanınmış naxçıvanlı alim, təbib, şair, sənətkarlar haqqında maraqlı faktlarla zəngin yazılar verilib. Oxucu bu kitab vasitəsilə Naxçıvanın Azərbaycan tarixinə, ədəbiyyatına, elminə, mədəniyyətinə bəxş etdiyi tarixi şəxsiyyətlər, ziyalılar barədə ətraflı məlumatlar ala bilər. Müəllif Azərbaycan ədəbiyyatında Şərq və Qərb mövzusuna da toxunub.



Tədbirdə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin “Naxçıvan teatrına həsr olunan qiymətli əsər” və “Naxçıvanın zəngin ədəbi-mədəni irsinin tədqiqi” mövzularında geniş məruzələri dinlənilib.

Məruzə ətrafında bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov, Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Əli Həşimov və Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov çıxış edərək adıçəkilən kitablar barədə danışıb, müəlliflərə gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonda müəlliflər – sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanov və elmi işçi Nərgiz İsmayılova tədbir iştirakçılarına öz minnətdarlıqlarını bildiriblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## *“Nuh yurdu”* intellektual oyununun Naxçıvan şəhər mərhələsi başa çatıb



*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində yeniyetmələr arasında “Nuh yurdu” intellektual oyununun Naxçıvan şəhər birinciliyi keçirilib.*

Oyun yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onların biliklərə olan maraqlarını artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etmək məqsədilə təşkil olunub.

Tədbirdə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev və Naxçıvan Şəhər Təhsil Şöbəsinin əməkdaşı Baba Əliyev çıxış edərək bildiriblər ki, bilik yarışması Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyəti və tarixinin təbliğində, gənclərdə təfəkkürün formalaşmasında, onlarda zehni qabiliyyət və bacarıqların inkişafında mühüm rol oynayacaq.

8 komandanın iştirak etdiyi intellektual oyun 2 mərhələ və final, hər mərhələ isə beş raunddan ibarət olub. Gərgin keçən mübarizə nəticəsində 8 nömrəli tam orta məktəbin “Lider” komandası qalib adını qazanıb. 5 nömrəli tam orta məktəbin “Göytürk” komandası ikinci, 12 nömrəli tam orta məktəbin “Zəfər” komandası yarışın üçüncüsü olub.

Qaliblərə diplom, fəxri fərman, kubok və bilik kitabları hədiyyə olunub.

*Bu gün Naxçıvan Muxtar Respublikasında idman siyasəti uğurla həyata keçirilir, muxtar respublika idmançıları ölkə və beynəlxalq səviyyəli yarışlarda nailiyyətlər əldə edirlər. Yaradılan yeni idman bölmələri, inşa edilən idman kompleksləri və zalları idmançılarımızın daha böyük uğurlar əldə etməsinə geniş imkanlar açır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən bədii gimnastika bölməsi də qısa vaxt ərzində əhəmiyyətli uğurlar qazanıb.*

## Humay Qafarova: “Bədii gimnastika qısa vaxt ərzində Naxçıvanda sevilən idman növünə çevrilib”



“Xatun” Bədii Gimnastika Klubunun baş məşqçisi, bədii gimnastika üzrə Azərbaycan Respublikasının idman ustası Humay Qafarovanın rəhbərliyi altında bölmənin yetirmələri bu idman növünün sirlərinə daha dərindən yiyələnirlər. Hazırda o, həftə ərzində müxtəlif məkanlarda məşqlər keçir. Şərur rayonundakı bölmədə azyaşlılara və Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlara bədii gimnastikanı öyrədir, eləcə də Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərində yaradılan bölmələrdə qız tələbələrə gimnastika və aerobika hərəkətləri öyrədərək onları sağlam gələcəyə hazırlayır. Həmsöhbət olduğumuz məşqçi-müəllim uşaq və gənclərin bu idman növünə maraq göstərdiklərini bildirdi. O dedi:

– Bədii gimnastika dünyada elit idman növü kimi tanınır. Adətən, bizim bölməmizə 3-11 yaşlı qızlar cəlb olunur. Ancaq bu idman növünə maraq böyük olduğundan 12-15 yaşlarda qızlar da məşqlərdə iştirak edirlər. Valideynlərə uşaqlarının sağlam böyümələri üçün idmana cəlb etmələrini məsləhət görürəm. Eyni zamanda onların özlərini də idmanla məşğul olmağa dəvət edirəm. Bütün idman növlərinin əsasını məhz gimnastika və atletik hərəkətlər təşkil edir. Bu idman növü insanın onurğa sütununun, qamətinin düz olmasına, ayaqlarda olan əyriliyin aradan qaldırılmasına təsir göstərir. Həmçinin bədii gimnastikada uşaq mənəvi-psixoloji cəhətdən də möhkəmlənir. Yəni hər hansı bir fəndi yerinə yetirərkən ilk olaraq psixoloji cəhətdən ona hazır olmaq lazımdır. Məhz mənim də uşaqlara öyrətdiyim birinci məsələ budur.

***– Artıq 3 ildir ki, muxtar respublikamızda bədii gimnastika bölməsi yaradılıb. Məşqlərdə uşaqların fəallığından razısınızmı?***

– Bədii gimnastika bölməsi Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərir və hazırda 150-dən çox uşaq məşqlərdə iştirak edir. Yay aylarında bu say 200-ü keçir. Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında zalımız var və zal bədii gimnastika üçün lazım olan hər bir avadanlıqla təmin olunub. Eyni zamanda bu il yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” barədə keçirilmiş müşavirədə verilən tapşırıqlara əsasən Şərur rayonunda və Naxçıvan Dövlət Universitetində bölmələrimiz fəaliyyətə başlayıb. Ən əsası isə fiziki imkanları məhdud uşaqlar üçün bölməmiz var. Ümumiyyətlə, bədii gimnastika qısa vaxt ərzində Naxçıvanda sevilən idman növünə çevrilib.

***– Bu gün muxtar respublikada idmanın inkişafı üçün hər cür şərait yaradılıb, gələcəyə hesablanmış işlər görülüb. Belə bir şəraitdən bəhrələnən idmançılar yeni hədəflər müəyyənləşdirir, bu istiqamətdə çalışırlar. Bəs sizin gələcək planlarınız nədən ibarətdir?***

– Həqiqətən də, Naxçıvanda idmana, idmançıya çox böyük diqqət göstərilir. Bunun bariz nümunələrindən biri də aprelin 7-də idman sahəsindəki fəaliyyətim nəzərə alınaraq mənə yeni mənzil hədiyyə edilməsidir. Əməyimin qiymətləndirilməsi məni daha da ruhlandırıb. Gözləməzdim ki, bu gənc yaşımda belə bir sevinc hissi yaşaya bilərəm. Ailəm Bakıda yaşadığından məişət şəraitimlə tez-tez maraqlanır, kirayə mənzildə yaşamağımdan narahatçılıq keçirirdi. İndi onlar da ən az mənim qədər sevincli və qürurludurlar. Naxçıvan şəhərinin mərkəzində mənə gözəl bir mənzil hədiyyə etdiyi üçün muxtar respublika rəhbərinə minnətdaram. Bu böyük qayğını heç vaxt unutmayacağam. Söz verirəm ki, əməyimə verilən dəyəri, mənə bəslənilən etimadı bundan sonra da doğruldacağam. İşimi hər zaman sevmişəm. Ona görə də məşqlərə daim xüsusi məsuliyyət və həvəslə yanaşıram.

Bədii gimnastika bölməsinin gələcək planlarına gəlincə, məqsədimiz bu növün muxtar respublikada daha da inkişaf etdirilməsinə nail olmaq və idmançılarımızın beynəlxalq səviyyəli yarışlarda iştirakını təmin etməkdir. Əminəm ki, yaradılmış şərait bizə qısa vaxt ərzində bu hədəflərə çatmağımıza imkan verəcəkdir. Bu məqamda qeyd etmək istəyirəm ki, Naxçıvanda idmanın maddi-texniki bazası gücləndirilib, idman infrastrukturu yenidən bərpa olunub və belə olan halda iş yalnız biz məşqçi-müəllimlərin üzərinə düşür. İstənilən idman növünü təbliğ və təşviq edən məşqçinin, eləcə də mənim bir amalım var: uşaqları idmana cəlb etmək, onlara idmançı ruhunu aşılamaq. Çünki bu, uşaqların gələcəkdə bir fərd kimi formalaşmasına, bilavasitə, təsir göstərir. Bununla yanaşı, uşaqlarda idmana həvəs oyatmaq, onların məşğul olduğu növü sevimli peşələrinə çevirmək lazımdır. Burada əsas yük biz məşqçilərin üzərindədir: biz uşaqlara həm psixologiyanı, həm elmi bilikləri, həm də idmanı öyrətməliyik. Yalnız bundan sonra idmanı aşıladığımız uşaqdan, tələbədən nəticə tələb edə bilərik.

Bu gün Naxçıvanda idmanın inkişafına, kütləviliyinə nail olmaq üçün böyük işlər görülüb. İdmançılarımızın beynəlxalq arenalarda uğur qazanmaları bunu bir daha sübut edir. Mən də çalışacağam ki, bədii gimnastika növü üzrə yeni-yeni uğurlar əldə edək.

*– Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.*

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Nəsirov Orxan Şərif oğlunun adına olan gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 320